# Səməd bəy Mehmandarov: döyüş təcrübəsindən dövlətçilik dərsinə



*(əvvəli ötən sayımızda)*

**Mehmandarovun övladı Pir (İqor) Mehmandarovun xatirələrinə görə, 1920-ci il aprelin 27-də parlamentin son iclasından qayıdan Səməd bəy Mehmandarov evinin qapısının girişində hazırlanmış çamadanları gördükdə qeyd etmişdir: "Boşaldın, heç yerə gedəsi deyilik". Anasının narahatlığına cavab olaraq o əlavə etmişdi: "Bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım yoxdur". Həqiqətən, Biləcəridə müsavat hökumətinin rəhbərlərini Tiflisə aparacaq qatar Mehmandarovun qərarına görə yarım saat gecikmişdi.**

**1920-ci ilin may ayında Gəncədə baş verən anti-sovet üsyanı amansızcasına yatırıldıqdan sonra Azərbaycan milli ordusunun yüksək rütbəli zabitlərinin böyük hissəsi həbs olundu. Həbs edilənlər arasında generallar Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski də var idi. Onlar Bakıda ÇK-nın (Fövqəladə Komissiya) həbsxanasında saxlanılırdılar və xatirələrə görə burada müxtəlif alçaldıcı və təhqiramiz hərəkətlərə məruz qalmışdılar.**

1920-ci ilin iyunun 4-də Mehmandarov və Şıxlinski Moskvaya göndərilmişdir. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası İttifaq Sovetinin sədri Nəriman Nərimanov V. İ. Leninə ünvanladığı məktubunda generallarla bağlı qeyd edirdi ki, onlar üsyana qarışmamış, lakin hərbi mütəxəssis kimi əvəzedilməzdirlər və Polşadakı cəbhə işləri başa çatana qədər Moskvada xidmət etmələri zəruridir. Nərimanov onların siyasi baxışlarını da vurğulayırdı: müsavatçılara nifrət edir, Azərbaycanın Sovet Rusiyasız mövcud ola bilməyəcəyinə inanırlar və Rusiyanı dəstəkləyirlər. Moskvaya çatdıqdan sonra Mehmandarov və Şıxlinski yenidən həbs edilərək Butursk həbsxanasına salındılar. Bu barədə Nərimanov Stalinə müraciət edərək onların azad olunmasını xahiş etmişdi. Stalin 1920-ci il noyabrın 12-də ünvanladığı məktubunda Azərbaycan generallarının günahsız olduğunu təsdiqləyərək azad edilmələrini təmin etmişdir. Yeddi gün sonra generallar azad olunaraq Daimi Artilleriya Komissiyasının üzvü kimi səhra qərargahına göndərilmişdirlər.

1920-ci ilin avqustunda Mehmandarov Moskvaya qayıtmış və Ümumrusiya Baş Qərargahının sərəncamına verilmişdir. Daha sonra o, Artilleriya Nizamnaməsi Komissiyasına daxil edilmişdir. Bu dövrdə Azərbaycanda Qızıl Ordunun formalaşdırılması prosesi gedirdi. Hərbi-Dəniz işləri üzrə xalq komissarı Əliheydər Qarayev generalları, o cümlədən Mehmandarovu hərbi ekspert kimi işə cəlb etdi.

1921-ci ilin payızında Mehmandarov Bakıya geri qayıtdı və Azərbaycan Sovet Sosialist Respublikasının hərbi strukturlarında xidmətə başladı. O, Azərbaycan Komandirlər Məktəbində topçuluq üzrə dərs tədris etmiş, Bakı qarnizonunun Hərbi-Elmi Cəmiyyətinin üzvü olmuşdur. O, eyni zamanda, Xalq Hərbi-Dəniz Komissarlığında xüsusi tapşırıqlar üzrə müşavir kimi çalışaraq gənc Azərbaycan Qızıl Ordusunun hərbi strukturunun yaradılması, yeni bölmələrin təşkili və idarə olunması işlərində əsas mütəxəssis funksiyasını yerinə yetirmişdir.

Əliheydər Qarayevin müavini, gələcək general-leytenant A. İ. Todorski qeyd edirdi ki, Baş Qərargahda iki görkəmli mütəxəssis - Mehmandarov və Şıxlinski fəaliyyət göstərirdi. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1922-ci il oktyabrın 24-də imzalanmış qərarı ilə Mehmandarovun aylıq maaşına qızıl ilə 50 rubl əlavə edilmiş, bu ödənişin ömürlük və hətta hərbi xidmətdən tərxis olunduqdan sonra da saxlanılması qərara alınmışdır.

1924-1928-ci illərdə Mehmandarov Birləşmiş Komandirlər Məktəbində müəllim kimi fəaliyyət göstərmiş, Hərbi-Elmi Cəmiyyətin üzvü olmuş və Xalq Hərbi-Dəniz Komissarlığında məsləhətçi kimi fəaliyyət göstərmişdir. 1928-ci il fevralın 8-də Qafqaz Qırmızı Bayraqlı Ordusunun İnqilabi Hərbi Şurası onun fərdi dövlət təqaüdünün verilməsi barədə vəsatət qaldırmış, 1928-ci il iyunun 1-də səhhətində yaranan problemlərə görə Qızıl Ordu sıralarından tərxis edilmişdir.

Səməd bəy Mehmandarovun ailəsi həm Azərbaycan milli ordusunun formalaşması, həm də Sovet dövründə yaranan hərbi-siyasi proseslərin birbaşa şahidi olmuşdur. O, Kiyev zadəganlarından Yelizaveta Nikolayevna Teslavla ailə həyatı qurmuşdur. Cütlüyün uzun müddətdən sonra 1908-ci il noyabrın 18-də bir oğul övladı dünyaya gəlmişdir. Mehmandarov oğluna Pir adını vermişdir. Sonradan oğlu İqor adını almışdır. Hərb tarixçisi Şəmistan Nəzirli ilə Bakıda görüş zamanı məlum olmuşdur ki, İqor və anası Yelizaveta Nikolayevna 1930-cu illərin əvvəllərindən Sovet İttifaqı tərəfindən sistemli təzyiqlərə məruz qalmışdır.

Ailə 1930-cu ildə Sankt-Peterburqa köçməyə məcbur edilmiş, burada polis və gizli polisin nəzarəti altında yaşamışdır. 1937-ci ildə Saratova, 1941-ci ildə isə Sibirə sürgün olunmuşlar. Sürgün zamanı Yelizaveta Mehmandarova almanlar tərəfindən partladılan qatarda vəfat etmişdir. Sürgündən sonra İqor uzun müddət Kalininqradda yaşamış, 1977-ci ildə Ümummilli Lider Heydər Əliyevin dəvəti ilə Bakıya gəlmiş və ailəyə yaşayış üçün ayrılmış evdə məskunlaşmışdır.

Səməd bəyin yeganə övladı olan İqorun İza Polaginadan övladı olmamışdır. O, 1989-cu ildə vəfat etmiş və Yasamal qəbirstanlığında dəfn olunmuşdur.

Beləliklə, Səməd bəy Mehmandarovun həyat və fəaliyyəti yalnız bir hərbçinin bioqrafiyası deyil, həm də Azərbaycan xalqının mürəkkəb tarixi mərhələlərdə öz dövlətçilik idealını yaşatmaq əzminin təcəssümüdür. Onun keçdiyi yol sübut edir ki, tarixin sərt sınaqları qarşısında milli kimliyi qorumaq və xalqa xidmət etmək mümkündür və bu, böyük şəxsiyyətlərin iradəsi ilə reallaşır.

Onun həyatı və hərbi fəaliyyəti Azərbaycan hərb tarixində peşəkarlıq, milli mövqe və dövlətə xidmət nümunəsi kimi yaddaşlarda qalacaqdır. Nəticə etibarilə, Səməd bəy Mehmandarovun irsi hərbi peşəkarlığın dövlət idarəçiliyi ilə üzvi bağlılığını nümayiş etdirir. Onun fəaliyyəti sübut edir ki, güclü ordu yalnız müdafiə mexanizmi deyil, həm də milli dövlətçilik şüurunun və institusional sabitliyin təminatçısıdır.

general-leytenant Səməd bəy Mehmandarov Varşava Hərbi Dairəsinə köçürülmüş 3-cü Qafqaz ordu korpusunun tərkibində 21-ci piyada diviziyasına komandanlıq edirdi. Bu diviziya Rusiya İmperator Ordusunun döyüş qabiliyyətinə görə seçilən birləşmələrindən hesab olunurdu. Xüsusilə 81-ci Abşeron və 83-cü Samur piyada alayları yüksək manevr qabiliyyəti, intizamı və hücum əməliyyatlarında fəallığı ilə fərqlənirdi.

1914-cü il sentyabrın 27-dən 29-dək döyüşlərdə Visla istiqamətində aparılan əməliyyatlar zamanı Mehmandarovun diviziyası Kozenitse rayonunda çayın çətin keçilən hissəsində intensiv atəş altında körpübaşı yaratmağa nail oldu. Onun rəhbərliyi altında 2-ci briqada Vislanın sol sahilində üç gün ərzində arxa təminat və birbaşa dəstəkdən təcrid olunmuş vəziyyətdə müdafiə olunaraq Alman Qvardiya Korpusunun ardıcıl hücumlarını dəf etdi və süngü həmlələri ilə əks-hücuma keçərək düşmənin irəliləyişini dayandırdı. Bu əməliyyata görə Mehmandarov 3-cü dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif olundu.

1914-cü il dekabrın 11-də o, 2-ci Qafqaz ordu korpusunun komandiri təyin edildi. 21-ci piyada diviziyasına ünvanladığı vida əmri onun komandanlıq üslubunu və şəxsi heyətə münasibətini aydın göstərirdi. O, 11 ay - xüsusilə son beş ay döyüş şəraitində - diviziyaya rəhbərlik etdiyini vurğulayaraq, bu müddətdə şəxsi heyətin döyüş keyfiyyətlərini yaxından tanıdığını və diviziyanın şərəfli ad qazandığını qeyd edirdi.

Alman qoşunlarının genişmiqyaslı hücumu zamanı, bir sıra rus birləşmələrinin geri çəkildiyi kritik məqamda Mehmandarovun diviziyası əks-hücuma keçdi. Telefon rabitəsi ilə vəziyyət barədə soruşulduqda onun "Vəziyyət ağırdır. Hücuma keçirəm!" cavabı operativ qərarvermə və təşəbbüs nümayişinin göstəricisi idi. Üç günlük intensiv döyüşlərdən sonra diviziya İvanqorod istiqamətində irəliləyərək alman qüvvələrinə ciddi zərbə vurdu. Bu əməliyyat alman generalı Makenzenin sürətli irəliləyiş planını pozdu və iki rus ordusunun mühasirəyə düşməsi təhlükəsini aradan qaldırdı.

Həmin dövrdə Ali Baş Komandanın yanında səhra artilleriyası üzrə xüsusi tapşırıqlar generalı vəzifəsini icra edən Əliağa Şıxlinski qərb cəbhəsində ağır səhra toplarının tətbiqini yoxlayarkən qeyd edirdi ki, yalnız Mehmandarovun korpusunda bu yeni silah növünün taktiki imkanları düzgün qiymətləndirilmiş və atəş mövqeləri operativ vəziyyətə uyğun seçilmişdir. Bu, birbaşa Mehmandarovun artilleriya sahəsindəki peşəkarlığının nəticəsi idi.

O, 1915-cı il yanvarın 2-də 2-ci dərəcəli qılınclı Müqəddəs Vladimir ordeni ilə, fevralda 14-də isə brilyantlarla bəzədilmiş Georgi silahı ilə təltif olundu. Təltif sənədində qeyd edilirdi ki, 1914-cü il 9-dan 13-dək İvanqorod yaxınlığında alman qoşunlarını təqib edərkən və Poliçno-Boquçinski meşəsində ruslardan sayca üstün Avstriya qüvvələri ilə toqquşma zamanı Mehmandarov şəxsi nümunə göstərərək cinahın mühasirəyə alınmasının qarşısını almış, süngü həmlələri və qətiyyətli hücumlarla düşməni geri çəkilməyə məcbur etmişdir. Həmin döyüşlərdə çoxlu sayda əsir və hərbi texnika ələ keçirilmişdi.

1915-ci il martın 22-də Səməd bəy Mehmandarov artilleriya generalı rütbəsinə yüksəldildi. Bu rütbə Birinci Dünya müharibəsi dövründə son dərəcə nadir hallarda verilirdi və cəmi səkkiz nəfərə nəsib olmuşdu. Onun rəhbərlik etdiyi 2-ci Qafqaz ordu korpusu Prasnış, San, Xolm, Vilnüs və Svençyanı istiqamətlərində ən ağır döyüşlərdə iştirak etdi. Korpus iki əlavə piyada diviziyası ilə gücləndirildikdən sonra əməliyyat birləşməsi qeyri-rəsmi olaraq "Mehmandarovun qrupu" adlandırılmağa başladı.

Qrup qoşunlarına ünvanladığı əmrlərdə Mehmandarov komandan heyətindən möhkəm iradə, təşəbbüskarlıq, çeviklik və düşünülmüş idarəçilik tələb edir, müdafiə sahələrinin son imkanadək saxlanılmasını, nizam-intizamın qorunmasını və komandirlərin ön xəttlə daimi təmasda olmasını tapşırırdı. Onun üçün döyüşün taleyini yalnız texnika deyil, intizam və komandanlıq iradəsi həll edirdi.

1915-ci il aprelin 9-da o, qılıncla birlikdə Ağ Qartal ordeni, oktyabrın 15-də isə qılınclı Müqəddəs Aleksandr Nevski ordeni ilə təltif edildi. Müharibə boyu onun korpusu bir dənə də olsun artilleriya qurğusunu düşmənə təhvil vermədi. Həmin il Mehmandarov həmçinin Böyük Britaniya, Fransa və Rumıniyanın ali hərbi ordenlərinə layiq görüldü.

Mayor Hacıağa İbrahimbəylinin yazdığı kimi, Mehmandarov müharibə illərində ədalətli və prinsipial komandir kimi tanınır, dürüst və namuslu zabitləri müdafiə edir, intizamsızlığa isə güzəşt etmirdi. Rəsmi hərbi akademiya təhsili almamasına baxmayaraq, yalnız bacarığı, zəhməti, döyüşlərdə göstərdiyi şücaət və hərbi idarəetmə məharəti sayəsində artilleriya generalı kimi yüksək rütbəyə yüksəlmişdi. Bu fakt onun istedadının və peşəkarlığının ən bariz göstəricisidir.

*(ardı var)*

**Gülşən HÜSEYNOVA**
**AHTM-in əməkdaşı, ADMİU-nin müəllimi**